# "ŞAİRƏM" DEMƏYƏN ŞAİR

## *70 yaşınız mübarək, RAMİZ İSMAYIL*



Azərbaycan xalqı şair xalqdır. Bu fikri ilk dəfə kim ifadə edib, nə vaxt və hansı şəraitdə səsləndirib, bu mənə bəlli deyil. Bəlli olan odur ki, fikirdə müəyyən qədər həqiqət var.

Əlavə etmək olar ki, Azərbaycan xalqı həm də bəstəkar, nəğməkar xalqdır. İndi şeir yazıb musiqisini bəstələyən, aranjiman eləyib özü də ifa eliyən o qədər sənətçi var ki! Xalq folklorunda necə deyiblər: "Özü doğdu, özü göbəyini kəsdi, özü də bələdi".

Köhnə dövrlərdə sənətkar, bəstəkar, nəğməkar deyərdilər. Nə üçünsə, zamanın hansı zərurətindənsə indi sənətçi, bəstəçi, sözçü kimi hələ elin dilinə uyuşmayan qəribə terminlər əmələ gəlib.

Azərbaycan xalqına "şair xalq" deyənlərin fikrindəki həqiqət xeyli vaxtdır ki, özünü büruzə verir. İndi kimi dindirsən şeir haqqında, poeziya haqqında nə qədər desən danışa bilər, şeir səsləndirər, kimin şeirini istəsə özününküləşdirər, hətta öz şeirlərini gül üzünə "püf" demədən oxuyar.

Görəsən, şeir yazmaq nədir? Zamanla uyğunlaşan, ayaqlaşan dəbdirmi, ruhi qidadırmı, könül əyləncəsidirmi, sevgi etirafıdırmı. satira atəşidirmi, şairlik iddiasıdırmı?

Pulun var, xanimanın var, villaların, super marketlərin, maşınların, məşuqələrin, daha nələrin, nələrin var! Bəs çatmayan nəyin qaldı? Aha, kitabın yoxdu! Niyə də olmasın? Şairliyə bu cür gələnlər nə qədər desən var, özü də qalaq-qalaq "şeir" kitabları ilə. Şeir şəklində ağlına və ağzına gələni yazıb, sonra da şeir dəllallarına (Bəli! Hər sahənin olduğu kimi şairliyin də öz bazarı, öz dəllalları var - Ə.A) "enini, boyunu düzəltdirib", yəni, "qafiyəsini, hecasını qaydaya salıb" kitab çap elətdirirlər.

(Şeir dili ilə desək, bəlkə daha yaxşı alınar, necə ki, belə şairlərdən biri deyib: "Diplomsuz Sarı Aşıq bayatı yaza bilib, mən iki diplomlu biri bayatı yaza bilməyəcəmmi?"

*boy-buxuna əl gəzdirib,*
*telinə sığal çəkdirib,*
*gül adına gül əkdirib*
*şeir yazanım hay, hay!")*

Belələri cürbəcür titullar alırlar, hətta gedib Yazıçılar Birliyinə üzv də olurlar, yeri gəldi, gəlmədi, soruşan oldu, olmadı, lovğalanıb "şairəm" deyirlər.

Nə isə... Belələri ilə işimiz yoxdur... Elə-belə, sözgəlişi mövzuya giriş elədik. Çünki şairlər tanıyırıq ki, uzun müddət şeir yazıblar, meydan iddiasında olmayıblar, dəyərli poeziya nümunələri yaradıblar, güc-bəla bir neçə kitab çap elətdirsələr də heç vaxt "şairəm" deməyiblər. Təvazökarlıq, abır-həya, ən başlıcası SÖZə, şeirə, sənətə hörmət və rəğbəti, sevgisi, məhəbbəti olduğuna görə, "şairəm" sözünün məsuliyyətinə görə, Nizamiyə, Füzuliyə, Xəqaniyə, Nəsimiyə və onlarla dahi SÖZ USTADINA ehtirama görə.

Əlli ildən artıq yaradıcılıq yolu keçmiş RAMİZ İSMAYIL belə şairlərdəndir.

Kimdir Ramiz İsmayıl? Onun həyat yolu ilə yaradıcılığı bir-biri ilə o qədər sıx bağlıdır ki, ayırmaq insafsızlıq olardı.

*"Bir dəfə özümə şair demişəm,*
*Məni bağışlayın, bir də demərəm!"*

Bu misralar Ramiz İsmayılın "Bir şair ayrılır Mingəçevirdən" adlı kitabından götürülüb. O, bu şeirinin yaranma səbəbini və "təqsirini" şair İsmayıl İmanzadədə görür.

İsmayıl İmanzadə Cəbrayıl rayonunda doğulub, boya-başa çatıb, yaradıcılığa başlayıb, rayonun sayılıb-seçilən ziyalılarından biri olub. Cəbrayılın işğalından sonra məcburi köçkün kimi Mingəçevirdə məskunlaşıb. Təbii ki, doğma yurd

**Çox hörmətli Əli bəy!**

Mənə elə gəlir ki, müasir Azərbaycan ədəbiyyatı poeziyasının zirvəsində duran qartallardan biri də Ramiz müəllimdir.

Ay aman dünyanın işinə bir bax,
Uca dağ ucadan, uca olubdur.
Şair qardaşımız cavan yaşında,
70 yaşlı bir ağsaqqal olubdur!!

Bir şair ayrıldı Mingəçevirdən, kollektivdən, dost, tanış çərgəsindən.

Bircə təsəllim odur ki, mən onun sadiq oxucusuyam. Olduğu kimi görünən, göründüyü kimi olan, Realist, özünə, yalnız özünəməxsus oturuşu, duruşu, sözü söhbəti olan səmimi bir insandır,Ramiz müəllim.

Bəzən özüm-özümə sual verirəm ki;

- Necə sığıb bu sətirlər bir şairin sinəsinə? Yeddi kitabın oxucusu kimi səkkinci kitaba mən də, ürək sözlərimi yazmaq istəyirəm!

70 yaşa gəlincə, özü demişkən:

Al qoynuna, yetmiş, məni,
Sanma ömrü bitmiş məni.

Can qardaş, sən nə danışırsan? "Hələ görüləsi çox işin qalıb".

Öz adımdan, iş yoldaşlarımın adından səmimi qəlbdən, ağız dolusu təbrik edib, möhkəm can sağlığı, uzun-uzun ömür arzulayıram.

Hörmətli Əli müəllim!

Lütvən xahiş edirəm ki, ərəyini-əyrisini düzüb-qoşub ən xoş arzularımızla birlikdə səmimi təbriklərimizi dərğiniz vasitəsi ilə Ramiz müəllimə çatdırasınız.

**Hörmət və ehtiramla:**
**Adil İsmayılov**
**Böyükxanım Qarayeva**

**Mingəçevir şəhəri**
**"Azərbaycan İES" MMC**

həsrəti, baba ocağından ayrılıq onun könlünü qübarlandırır. Mingəçevirdəki şəhər həyatı ona köhnə yurd, el-oba qədər doğma və əziz ola bilməz.

*"Kürü Araz bilib, Bozdağı Diri,*
*Qalıb Cəbrayılda qibləsi, piri.*
*Sızlaya-sızlaya nə vaxtdan bəri,*
*Bir şair yaşayır Mingəçevirdə".* - yazır İsmayıl İmanzadə.

Ömrünün qırx iki ilini Mingəçevirdə yaşayan Ramiz İsmayıl isə özünə doğma bildiyi, ikinci yurd-yuva hesab elədiyi, həyatının ən gözəl çağlarını yaşadığı, ailə qurub ev-eşik yiyəsi olduğu bu, adı dillərdə dastan olmuş nur şəhərindən ürək ağrısı ilə ayrılır. Bəlkə də, İ.İmanzadə "sızlaya-sızlaya Mingəçevirdə yaşamasaydı", R.İsmayıl da "Bir şair ayrılır Mingəçevirdən" şeirini yazmazdı və növbəti şeirlər kitabına bu adı verməzdi.

R.İsmayıl İ.İmanzadə ilə tanış olana qədər dörd kitab müəllifi idi. Mingəçevir ədəbi mühiti üçün əvəzsiz xidməti olan İsmayıl İmanzadə Ramiz İsmayılın şeirlərini oxuyan kimi "bu şairdir" demişdi. Sonralar İ.İmanzadənin səyi və təşəbbüsü ilə yaradılmış Azərbaycan Yazıçılar Birliyi Mingəçevir bölməsinin fəaliyyətində R.İsmayıl yaxından iştirak etmişdir.

İ.İmanzadə baş redaktoru olduğu "Mingəçevir leysanı" (indi "Bənövşə" adı altında nəşrini davam etdirir) jurnalında Ramiz İsmayılın yaradıcılığına geniş yer vermiş, şeirlərini mütəmadi çap etdirmiş, hətta poeziya şöbəsinin redaktorluğunu ona tapşırmışdır. İ.İmanzadənin onu şair kimi tanımasından "bir dəfə özünü şair" adlandıran R.İsmayıl yazır:

*"Hökmünə qul olub Tanrı əmrinin,*
*Bir şair ayrılır Mingəçevirdən.*
*Qırx ilini burda qoyub ömrünün,*
*Bir şair ayrılır Mingəçevirdən".*

Bu ayrılıq Ramiz İsmayılın qəlbini göynədir:

*Deməyin şəhərdən doyub gedir o,*
*Başqa bir məkana uyub gedir o.*
*Ürəyini burda qoyub gedir o,"*
*Bir şair ayrılır Mingəçevirdən"* - deyir.

Mingəçevir şəhəri və ədəbi mühiti R.İsmayılın həyatında çox mühüm rol oynayıb. Maşınqayırma zavodlarında, əfsanəvi su-elektrik stansiyasında, əsrin tikintisi adlandırılan Az.DRES-də müxtəlif vəzifələrdə işləyib. Şəhərin ictimai həyatında fəallıq göstərib. Şəhər Partiya Komitəsinin orqanı olan "Mingəçüvir işıqları" və "Oqni Minqeçaura"(rus dilində) qəzetlərinin ictimai müxbiri olub. Qəzetlərdə onlarla istehsalat qabaqcılının rəşadətli əməyindən bəhs edən oçerklər, məqalələr yazıb. "Mingəçevir işıqları" qəzetinin nəzdində fəaliyyət göstərən "Kür" ədəbi birliyinin ən ümid bəslənilən üzvlərindən biri olub. Şeirləri, yumoreskaları, hekayələri, novella və tərcümələri müntəzəm dərc edilmişdir.

*"Unuda bilmərəm Mingəçeviri,*
*Orda doğma bir məkanım qalıbdır.*
*Mənim Məkkəm imiş, Mədinəm imiş,*
*Qibləm, pirim, din-imanım qalıbdır".* - deyən şair şəhərdən ayrılanda halallıq istəyir. Taleyin hökmünə qul olduğunu "Gedər oldum" şeirində başqa səpkidə tamam orijinal formada bəyan edir. İllərlə "dəli Kür" adlandırdığımız çayı "quzu kimi sakit" bilib o:

*"Doğma anam kimi duyanım şəhər,*
*Dar gündə simsarım, həyanım şəhər.*
*Unutsam, qanıma boyanım, şəhər,*
*Gəlin halallaşaq, mən gedər oldum".* - yazır və sonda "qayıdıb ziyarətinə gələcəyəm" deyir.

Bu səpkidən "İki yurdum, iki elim" şeiri də maraqlıdır.

*"İki yurdum, iki elim var idi,*
*Biri Mingəçevir, biri Gədəbəy!*





*Ürəyimdə iki nisgil qövr edir,*
*Biri Mingəçevir, biri Gədəbəy!"*

Mingəçevirdən ayrılandan sonra R.İsmayıl bir müddət Xəzər rayonunun Bilgəh qəsəbəsində yaşamışdır. Şəhərin qaynar həyatından, dost-tanışın kifayət qədər çox olduğu bir ədəbi mühitdən ayrılıb sakit, bir az da darıxdırıcı, sönük bir şəraitlə üzləşmək onun üçün çətin olmuşdur. "Tanıyan, tanımayan hər insana deyin, "Azad məhbusam" düşmüşəm zindana deyin" qəzəlini yazmışdır. Qəsəbədə tanışların, qohum-əqrəbanın azlığı, ünsiyyət qurmaq üçün münasib adamların olmaması R.İsmayılı narahat edir. O, bütünlüklə özünü yaradıcılıqla məşğul olmağa "kökləyir". Çoxlu şeirlər, iyirmidən çox hekayə, üç povest yazır. Lakin həmsöhbətin, həmdərdin olmaması onu darıxdırır.

*"Səndən ötrü ürəyimin,*
*Başı göynəyər, köhnə yurd!*
*Gözlərimin qurumayan,*
*Yaşı göynəyər, köhnə yurd!*
*...Ramizin də ömrü bitər,*
*Dərdi yoxdu bundan betər.*
*Qürbət eldə qəbri itər,*

Nəşi göynəyər, köhnə yurd!" - kimi misralarla nigarançılığı, həsrətini izhar edib, qoyub gəldiyi yurd qarşısında, sanki günahkar olduğunu etiraf edir.

El arasında hərdən belə bir deyim də işlədilir: "İnsan üçün günü harda xoş keçsə, ora vətəndir". Ramiz İsmayıl bu fikirlə razılaşmır. Onun üçün vətən doğulduğu Kiçik Qaramurad kəndindən başlayır. O, Gədəbəydə Kiçik Qaramuradlı, Şəmkirdə, Gəncədə, Bakıda gədəbəyli, "Qırmızı körpü"dən o tərəfə - Gürcüstana keçsə, Qubadan keçib Dağıstana getsə, azərbaycanlıdır... və Vətən Azərbaycandır. Günün nə qədər xoş keçsə də qəriblik, qürbət el vətən deyil, Bu barədə Ramiz İsmayılın bir bəndlik şeiri var:

*"Arxamca göz yaşı tökməyin, dağlar,*
*Sizdən ayrılana göz yaşı düşmür.*
*Nə bir qarış torpaq, nə bir damcı su,*
*Nə də bir əl boyda baş daşı düşmür!"*

Moskvada yaşayan və yaxşı gün-güzəranı olan bir gədəbəylinin hər gün kövrələ-kövrələ oxuduğu bu bircə bənd şeir şair duyğularının ifadəsidir.

R.İsmayıl vətən sevgisini başqa bir bəndlik şeirində ürək yanğısı ilə ifadə edib:

*"Varlı vətən verər, bədən qoruyar,*
*Kasıb bədən verər, Vətən qoruyar.*
*Bu Vətəni şəhid gedən qoruyar -*
*Vətən, kasıbların ölməyib hələ!"*
*Bu misraların şərhə ehtiyacı varmı?*

Azərbaycan ordusunun zabiti olmuşam, on ildən artıq müddətdə döyüş bölgələrində, Ermənistanla sərhəd zonalarında xidmət eləmişəm. Bu illər ərzində bir nəfər də olsun məmur övladını əsgəri xidmətdə görməmişəm. Hələ bir nəfər vəzifəli şəxs övladının Vətən uğrunda şəhid olduğu xəbərini eşitməmişəm. İnanın səmimiyyətimə, heç istəmirəm də! Amma bu Vətənin, bu torpağın keşiyini, cəfasını həmişəmi kasıb balası çəkəcək, səfasını isə məmur övladı görəcək? Cəmiyyət, deyəsən, bununla çoxdan barışıb, lakin şair qəlbinin fırtınası heç vaxt sakitləşmir, odur ki, Ramiz İsmayıl "Kasıb balası" şeirində hirsini boğa-boğa yazır:

*"Qoru bu torpağı kasıb balası,*
*Ayazda, şaxtada, boranda qoru!*
*Qartallı zirvədə, dərin dərədə,*
*Ceyranlı, cüyürlü aranda qoru!*
*...Bit-birə ətini didib-yeyəndə,*
*İlanlar, əqrəblər vuranda qoru!"*
*Yorulma, usanma Vətən uğrunda,*
*Canından əziz bil, hər yanda qoru!"*

Təəssüf ki, şeiri bütövlükdə verə bilmirik. Nəhayət, şair davam edir:

*"Sənin qismətindir Tanrı bəlası,*
*Haqdan gələn bəla şirin olacaq!*
*Qoru bu torpağı, kasıb balası,*
*Pulun olsa qəbir yerin olacaq!*
*...Qoru özün kimi zəliləri də,*
*Bu torpağı soran zəliləri də!"*

Ramiz İsmayıl "şair xalqın nə cür övladları olduğunu kiçik bir şeirində belə təsvir edir:

*"Biz kimik?*
*Biz bizik!*
*Biz yaradıb yaradan bizi*
*Deşik-deşik eləmək üçün bir-birimizi".*
*Biz, yəni millət kimi biz! Bir də biz - qıyıq,*
*çarıq tikən biz!*
*Gəlin, bir-birimizi deşik-deşik eləməyək!*

Borçalıdan Dərbəndə, Dərbənddən İrəvana, İrəvandan Təbrizə qədər böyük bir ərazidə üç Azərbaycan mövcuddur; Cənubi, Qərbi və Şimali Azərbaycan. Ramiz İsmayıl, görün bu bəlamızı necə ürəkağrısı ilə qələmə alıb:

*"Bir millətin üç vətəni,*
*Qərqindən allah saxlasın.*
*Cənubi, Qərbi, Şimali (Azərbaycan)*
*Şərqindən allah saxlasın".*

Şair burada fövqəldövlətlərin amansız qəddarlığından "allah bizi qorusun" deyir.

Məlahət Yusifqızı bu bir bəndlik şeiri belə səciyyələndirir: "Bir milləti, çoxvətənli, çoxdövlətli bir milləti rəmzi olaraq Cənuba, Qərbə, Şimala silsilə ardıcıllığı ilə ayırmaqda güclülərin məqsədi nədir?

Görünür, Yerin üstünü şərə, kələyə sürükləyənlər daha güclü, daha əlbir ola bilirlər. Bu halda ayıq sənətkar necə seyrçi olaraq qala bilər?"

Bu sətirlər Ramiz İsmayılın "Hələ görüləsi çox işim qalıb" kitabından götürülüb. Həmin kitabda daha bir nümunə diqqət çəkir:

*"Baş açmıram doğrusu,*
*anlamıram nə işdi -*
*dünya bizə inanmır.*
*"Beynəlmiləl" oxuduq*
*əqidəmiz dəyişdi -*
*dünya bizə inanmır".*

İstər-istəməz adamın yadına düşür - fəxrlə deyirdik: biz beynəlmiləlçi xalqıq, Bakı beynəlmiləl şəhərdir. Paytaxtımızda yüz üç millətin nümayəndəsi yaşayır. Həmişə də öz millətimizin sinəsindən geri itələyib başqa millətin nümayəndələrinə üstünlük vermişik. Ən yaxşı yerlərdə onlar yaşayıb, ən yaxşı vəzifələrdə onlar işləyib. Çörəyimizi yeyib, suyumuzu içən ermənilər üstümüzə buynuz çıxaranda qeyri-millətlərin nümayəndələrinin heç biri etiraz səslərini ucaltmadılar. İndi də iyirmi beş ildən artıqdır ki, ATƏT (ATƏM) adlandırılan bir bədnam qurumun Qarabağın taleyini həll edəcəyinə sadəlövhcəsinə inanırıq.

*"Nə boyun əymə yada,*
*nə boyun əti olma.*
*Nə məzlum ol, nə yazıq,*
*nə aciz, müti olma.*
*ATƏT-ə ümid olma,*
*millətim qəti olma -*
*Dünya bizə inanmır".*
*Ramiz İsmayılın qənaəti budur:*
*"Yurdu ağlar qoyub, yurda ağladıq,*
*Orda qəbir qoyub, burda ağladıq.*
*Quzunu ağladıb, qurda ağladıq, -*

Qarabağı itirdik" - deyən şair üçrəngli bayrağı əldə tutub silaha sarılmağı Qarabağı işğaldan azad etməyin ən düzgün variantı sayır. Özümüzdən başqa heç kim Qarabağı bizə qaytarmayacaq. Bu məsələni fövqəldövlətlər acı bağırsaq kimi uzada-uzada duracaqlar - Fələstin məsələsini yetmiş ildən çox uzatdıqları kimi...

"Qarabağımız qayıtsın, dizin-dizin, sürünə-sürünə gedəcəyəm" - deyənlər çoxdur. Belə deyənlərə şair haqlı olaraq sual ünvanlayır:

*"Kim qaytarsın Qarabağımı?*
*Çadırlarda doğulan,*
*qaxınc adla damğalanan,*
*"Çadır uşağı"mı?*
*Kəpəzdə, Murovda donan,*
*şaxtada, qırovda donan,*
*kasıbın qul balasımı?*
*Yoxsa villalarda xumarlanan,*
*otellərdə tumarlanan*
*Papanın "gül balası"mı?*
*...Belində silah yerinə*
*mobil telefon gəzdirənmi?*
*CİP-də, "Mersedes"də*
*mamlı-matan gəzdirənmi?"*

Ramiz İsmayıl Qarabağ mövzusunda xeyli şeirlər yazmışdır. "Gözü yolda qalan var" sənədli povesti də bu mövzuda yazılmış samballı əsərlərdən biridir. Təəssüf ki, o, adıçəkilən povest geniş oxucu kütləsinə çatdırılmayıb. Cəmi iki yüz nüsxə tirajla çap olunan kitab müəllifin şəxsi vəsaiti hesabına, qismən də Az.DRES həmkarlar təşkilatının dəstəyi ilə işıq üzü görmüş və Mingəçevir oxucuları arasında yayımlanmışdır.

"Gözü yolda qalan var" povestinin qəhrəmanı Ramiz İsmayılın şəxsən tanıdığı Natiq Qasımovdur. Natiq Qasımov Xocalı faciəsinə qədər də müxtəlif yerlərdə döyüşlərdə olmuşdu. Ağdamda o vaxtlar məşhur olan "Ala Yaqub" və "Qatır Məmməd" kimi tanınan dəstə başçısının yanında döyüşmüşdü. Döyüşlər bir az səngiyəndə o, Mingəçevirə qayıtmış, Az.DRES-də işə düzəlmişdi. Xocalı hadisələri ərəfəsində Natiq Qasımov qəlbinin səsi, çağırışı, harayı ilə yenidən cəbhəyə qayıdıb "Ala Yaqub"un dəstəsinə qoşulur. "Ala Yaqub"un tapşırığı ilə döyüşə yollanan Natiq Qasımov Azərbaycan bayrağını aparıb Qriqorian kilsəsinin ən hündür yerinə sancır. Ermənilər kilsəni ələ keçirmək üçün bir neçə dəfə cəhd göstərsələr də xeyli itki verirlər. Natiq Qasımov kilsədə mövqe tutub ermənilərə qarşı yeddi gün təkbaşına vuruşur. Ermənilər döyüşlə kilsəni ala, döyüşçünü məhv edə bilməyəcəklərini görüb fənd işlədirlər. Xocalıda götürdükləri bir əsiri kilsəyə göndərirlər. Əsir Natiqə bildirir ki, əgər o, təslim olmasa ermənilər Xocalıda götürdükləri iyirmi iki əsiri öldürəcəklər. Natiq Qasımov bayrağı əlinə götürüb həmin əsirlə birlikdə ermənilərin qərargahına gedir. Ermənilər O QORXMAZ DÖYÜŞÇÜnün əvəzində iyirmi iki Xocalı əsirini azad edirlər. Natiq Qasımovun valideynləri, qohumları hələ də onun yolunu gözləyirlər.





Bu povest xarici dillərə tərcümə olunub yayılmağa layiq əsərdir.

Şairləri bəzən şərti olaraq məhəbbət şairi, lirik şair, təbiət şairi, nəğməkar şair kimi zümrələrə bölürlər. Ramiz İsmayıl bir çox mövzulara üz tutsa da, məhəbbət şairidir.

*"Bir gözəlin gözlərinə vuruldum,*
*Dedim: - aladırmı? Dedi: - aladır!*
*Al yanağa şölə saçır qara xal,*
*Dedim: - laladırmı? Dedi: - laladır!"*

Şair gözələ təriflər yağdırır, qaşını-gözünü, boy-buxununu vəsf eləyəndən sonra əsl mətləbə keçib "Sənin qiymətini Ramiz biləcək" deyir.

*"Güldü, gülüşündən üzü qızardı,*
*Dedi: - şair, bu nə giley-güzardı.*
*Məsləhət bilsəydi, Tanrı yazardı,*
*Dedi: - elədirmi? Dedim: - elədir!"*

"Unuda bildim" şeirində isə şair sevdiyi gözələ başqa cür müraciət edir:

*"Dedim: - gözəl, qıfıl mənəm, açar sən,*
*Könül qapısını özün açarsan.*
*Dedi: - unut, unutmağı bacarsan,*
*Nə yaxşı mən səni unuda bildim".*
*Bu səpkidən başqa bir şeirə nəzər salaq:*
*"Məndən özgəsini bəyəndin, sevdin,*
*Ona könül verdin, mənə qəm, kədər.*
*Mən səni itirdim, sən nə qazandın,*

Sənmi bəxtəvərsən, mənmi bəxtəvər?" - deyərək bu nakam sevginin acısını, ağrısını çəkəçəkə bəxtəvər olmağın mümkünsüzlüyünü anlatmaq istəyir.

Ayrılıqdan sonrakı həsrətin nə qədər unudulmaz və ağrılı olduğunu şair eyni yanğı ilə təsvir edir:

*"Bu ömür deyildi, əfsanə idi,*
*Qaytar o günləri bir də sən mənə.*
*Könlüm ovunardı təbəssümündən,*
*Gözündən paylardın nur da sən mənə!"*

Sevdiyi gözəlin məhəbbəti qarşısında səcdə eləməyə hazır olan, sevgilisinin tuti dilindən layla eşidib əfsun bilən şair:

*"Pərisi, mələyi sənsən Ramizin,*
*Göydən en, lazımsan yerdə sən mənə!"* - deyib vüsala qovuşacağı ümidi ilə yaşayır.

Unudula bilməyən ilk sevgini hamı yaşayıb. İlk məhəbbət hələ son məhəbbət demək deyil. Uğursuz ilk məhəbbətdən sonra sevmək mümkündür və elə belədir. Hamının həyatında yaşın ən müxtəlif vaxtlarında sevgi hissi baş qaldıra bilər. Ramiz İsmayıl bu hissləri bir qədər yumorlu şəkildə, bir qədər ciddi, bir qədər də peşmançılıq hissi ilə ifadə edib:

*"Bir dəli şeytanın felinə uyub,*
*İnandım sözünə yaşın bu vaxtı.*
*Kəsib qarşısını, dedim gözələ:*
*-Vuruldum gözünə yaşın bu vaxtı!"*

Bu mənzərə şair düşüncəsinin, müşahidəsinin və təxəyyülünün məhsulu olsa da real həyatda rast gəlinən hadisədir. Şeiri oxuyan "əqli, düşüncəsi, abrı, həyası, ləyaqəti olan bir "ciyəri yanmışı" görüb, "yolu azan", haldan-hala düşən aşiqin son etirafını təbəssümlə qarşılayar.

*"Onu görüb haldan-hala düşmüşəm,*
*Yolu azıb, əyri yola düşmüşəm.*
*Ramiz deyər: xam xəyala düşmüşəm,*
*Döyürəm dizimə yaşın bu vaxtı".*

R.İsmayılın təqdimatında aşiqlər sevdikləri qıza daş ürəkli, vəfasız, insafsız kimi "damğalar" vurmur.

*"Sevə bildi, sevmədiyim yad belə,*
*Sevmədin sən məni, sevmədin, gözəl.*
*Yandırmazdı ocaq belə, od belə*
*Sevmədin sən məni, sevmədin, gözəl".* - deyən şair:
*"Sevmədin, heç sevmə, canın sağ olsun,*
*Təki bu günahın son günah olsun.*
*Ərin xoşbəxt olsun, günün ağ olsun,*
*Sevmədin sən məni, sevmədin, gözəl".*

Yazaraq gözələ xoş günlər, xoşbəxt həyat arzulayır. Ramiz İsmayılın "Sevmirəm daha" şeirində də maraqlı, düşündürücü fikirlərə rast gəlmək olur.

*"Məcnun olan, Kərəm olan yerdə mən,*
*Məhəbbətdən söz açımmı bir də mən?*
*Bəs deyilmi, həmdəm oldum dərdə mən,*
*"Əlvida" söyləyib əzaba, aha,*
*Mən səni sevirdim, sevmirəm daha!"*

Bu məhəbbəti cavabsız qalan bir aşiqin "üsyan" səsidirmi? Məhəbbətin, sevginin "qurbanları" olan Məcnundan, Kərəmdən sonra "biz kimik" sualıdırmı?

*"Gözəl sevdim, gözlərindən od damır,*
*Necə açım bu gözələ könlümü?"* - misraları ilə başlayan "Necə açım" şeirində lirik qəhrəman deyir:

*"Danışmır, deyəm ki, sözlə yandırır,*
*Alışmır, görəm ki, közlə yandırır.*
*Zalım qızı qaşla, gözlə yandırır,*
*Necə açım bu gözələ könlümü?"* - və könül açmağın yollarını fikirləşənə qədər R.İsmayıl şeirin möhürbəndini vurur:

*"Ramizəm, özümü söysəm, yeri var,*
*Başıma, gözümə döysəm, yeri var.*
*Daha onun körpəsi var, əri var,*
*Necə açım bu gözələ könlümü?"*

Sevgidə, məhəbbətdə gecikmək və tələsmək ölçü-biçi ilə deyil. Əbəs yerə demirlər ki, məhəbbətin gözü kor, dili laldır. "Sevirəm" demək nə qədər çətindirsə, "sevirəm" deyə bilməyib illər boyu həsrət çəkmək ondan da çətindir. R.İsmayılın lirik qəhrəmanı "saç-saqqalı ağarandan" sonra guya özündə cəsarət tapıb "o vaxtlar sevdiyi qıza" məhəbbətini izhar etməyə gedir.

*"Ay gözəl, o vaxtlar lal olmuşam mən,*
*"Sevirəm" deməyə gəlmişəm indi",* -
və bu illər ərzində möhnət içində, bir kəlmə sözə cürəti çatmayıb "can üzə-üzə" yaşadığını, indi də onsuz da gec olduğunu bilə-bilə, "lal və dəyməmiş, kal olduğunu" görə-görə "sevirəm" deməyə gəlib.

*"Ramizəm, dərdimi duymadı çoxu,*
*Canımda ruh yoxdu, gözümdə yuxu.*
*Sən allah, bu dəfə gözümdən oxu,*
*"Sevirəm" deməyə gəlmişəm indi!"*

Budur kor məhəbbət, budur lal sevgi, budur əsl sevgi - gözümdən oxu!

Ramiz İsmayılın bir şeirindən də nümunə gətirib, "məhəbbət şairi" fikrimi tamamlamaq istəyirəm. Hərçənd şairin onlarla şeirindən sitat gətirmək mümkündür.

*"O günləri bir də yada salaq biz,*
*Gəl, bir az da məhəbbətdən danışaq",* -
deyən şair "qorxa-qorxa görüşə çağırdığını, fağır kənd uşağı olduğunu, ayrılığın əzablarını daha odu sönüb külü ilə oynadığı məhəbbət"dən danışmaq üçün yenidən, görüşmək, dərdləşmək istəyir.

*"Bir budaqda iki qərib quş ötür,*
*Yaz kirimir, payız susmur, qış ötür.*
*Sən nənəsən, mən babayam, yaş ötür,*
*Gəl, bir az da məhəbbətdən danışaq!*

*Lap danışdıq, danışmağın nə adı?*
*İndən belə nə ləzzəti, nə dadı?*
*Dünya özü məhəbbətsiz dünyadı,*
*Gəl, bir az da məhəbbətdən danışaq!*

*Ramiz, hicran qamətini əyirmi?*
*Bu ayrılıq müsibətmi, xeyirmi?*
*Məhəbbətdən danışmağa dəyirmi?*
*Dəyirsə gəl, məhəbbətdən danışaq!"*

Dəyir, şair, məhəbbətdən danışmağa hər zaman və hər yerdə dəyir!

Əgər şair məhəbbətdən və məhəbbətlə yazmırsa bir şair kimi tükənmiş olur. R.İsmayıl isə ömrünün müdriklik və kamillik çağında hələ məhəbbətdən yazır.

Ramiz İsmayıl həm də təbiət şairidir. O, doğulub boya-başa çatdığı Gədəbəyin əsrarəngiz gözəlliklərini, dağlarını, meşələrini, zümzüməli bulaqlarını, kəklikli, turaclı qayalarını vəsf etməkdən yorulmur.

*"Bizim dağlar möcüzədir, möcüzə,*
*Bir bulaqda qoşalaşır yüz cığır.*
*Zirvəsinə əl yetişməz, ün çatmaz,*
*Yüz harayla, yüz nərə çək, yüz çığır.*
*...Qayaların sinəsində qala var,*
*Qalaların zirvəsində lala var.*
*Lala dolu neçə-neçə tala var,*
*Hər talada yüz çala var, yüz çuxur!"*

Bu adi söz oynatmaları deyil, heyrətamiz təbiət lövhəsidir, Yaradanın bəndələrinə bəxş etdiyi tablonun bədii ifadəsidir, təsviridir.

*"Şəlalələr qaval çalır daş üstə,*
*Dağlar, daşlar sürmə çəkib qaş üstə.*
*Aşıq qardaş, bir hava çal, - baş üstə,*
*Telli sazın havasından doymadım.*
*...Zirvəsində gələn qara qar qalar,*
*Ətəyində şirə çəkər arılar.*
*Mən ayrıldım, ürək çətin ayrılar,*
*Bulaqların avazından doymadım".*

Gül-gülü, bülbül-bülbülü çağıran, dağ çayının daşlarda qaval çalan səsindən, qızıl balıqların hoppanıb düşdüyü sulardan, meşələrin ətrindən, aşıqların telli sazının havasından, bulaqların avazından doymaq mümkündürmü?

*"Nə var bu yerlərdə şair olmağa,*
*Hər qarış torpağı, daşı şeirdir!"*

Hər qarış torpağı, daşı şeir olan yerdə şairin nigarançılığına baxın:

*"Körpə cüyür, süzüb keçmə taladan,*
*Ovçu görər, qurtarmazsan bəladan.*
*Ana maral ayrı düşsə baladan,*
*Gözündən süzülən yaşı şeirdir!"*
*Şeirin möhürbəndinə fikir verin:*
*"Dağlardan yazmağa qələm götürsən,*
*Ay-Ramiz, ağlına bir şey gətir sən.* -
*Unutsan bircə söz, bircə sətir sən*
*Deyərlər şairi naşı şeirdir!"*





"Qaraguruhçu" tənqidçilər və bəzi şairlər irad tuta bilərlər; şeirdə daxili bölgü gah altı-beş, gah dörd-dörd-üç olmuşdur. Qoy, olsun! Məgər bu şeirin rəvanlığına, şirinliyinə, bədiiliyinə xələl gətirmişdir?

R.İsmayıl gördüyü mənzərəli yerləri "oxumağı" bacaran şairdir:

*"Burda şeir öz-özünə yazılıb,*
*Qarlı qışda buz üstündə oxudum",* -
misraları ilə başlanan şeir memar ustalığı, zərgər dəqiqliyi, şair səliqəsi ilə təsvir edilmişdir! Şeirdən bir neçə bəndə nəzər salaq:

*"Bir misranı oğlu, qızı yaradıb,*
*Bir misranı körpə quzu yaradıb.*
*Bir misranı dan ulduzu yaradıb,*
*Səcdə qılıb diz üstündə oxudum.*
*...Bir misranı kəklik ötən qayada,*
*Bir misranı Tanrı çəkən boyada,*
*Bir misranı dağ yolunda piyada,*
*Bir misranı düz üstündə oxudum.*
*...Bir misranın cilvəsində ay azdı,*
*Bir misranın haləsində ayazdı.*
*Bir misranı Günəş dedi, Ay yazdı,*
*Bir misranı öz üstündə oxudum".*

Bu sehirli, möcüzəli aləmi anlamaq üçün:

*"Ramiz, daha nə kağız gəz, nə qələm,*
*Yazılanı saz üstündə oxudum",* - deyərək Gədəbəyin dağlarını bu cür tərənnüm edir. Səkkiz bəndlik şeir bütöv bir təbiət mənzərəsini gözlərimiz önündə canlandırır.

*"Dağdan, daşdan çox yazırsan, deyən dost,*
*Gəl göstərim, gör gülünü dağların.*
*Vəsf eləyib Tanrı qoyub əlilə,*
*Nöqtəsini, vergülünü dağların".*

Dağlardan yazanlar çox olub, indi də var. Əzəmətli mövzudur, odur ki, əli qələm tutan bu möhtəşəm mövzuya şeir həsr edir.

Ramiz İsmayıl da dağlar oğludur, şeirlərinin çoxunu Ağsu dolaylarından əzəmətli Qafqazın qarlı zirvəsinə baxıb yazıb. İsmayıllı - Qəbələ yolunda, Şəkinin, Balakənin, Goranboyun, təbii ki, həm də Gədəbəyin min bir təbii naxışla bəzədilmiş dağlarında olan gözəlliyə şeir yazmamaq insafdandırmı?

R.İsmayıl Bozdağa da şeir yazıb. Nə bir ağacı, nə bir çəməni-çiçəyi, nə bir bulağı, nə "bulaqbaşı" olmayan Bozdağı da vəsf eləmək olarmış. Təki qəlbin olsun, duyğun olsun!

Ramiz İsmayıl lirik şairdir! Onun "Yuxuma gir, heç olmasa", "Qəlbimə dəymə", "Qoysun", "Xoşbəxt elə", "Gecə-gündüz gülü", "Bənövşə", "Sarıtel", "Bu gözələ" və onlarla şeiri lirikanın ən gözəl nümunələrindəndir. Bu şeirlər səmimiliyi və təbiiliyi ilə seçilir. Şair "Oğluma" və "Qızıma" adlı iki şeir yazıb. "Oğluma" şeirinə diqqət edək:

*"Bir yaşı da yoxdu hələ oğlumun,*
*Ayaq üstə təzə-təzə dirəşir.*
*Söz-söhbəti qığıltıdır, inqədir,*
*Nəğmələri bir not üstə yerləşir".*

Bu misraları oxuyan hər bir gənc atanın, inanmıram ki, qəlbi riqqətə gəlməsin. Oğlunun boynundan tutaraq ayaqlarını qoşalaşdırıb "dirəşdirmək", fərəhlə ilk övladının ayaqları üstündə dura bilməsini kim arzulamayıb, kim görməyib, kim sevinməyib? Yatan körpənin "mışıltılı, təbəssümlü yuxusu" "dodağında azmı sehirlənib - sirləşib?"

*"Bir də gördün yatağında dikəldi,*
*Sevinirik, yəqin bir boy yekəldi.*
*Boy-buxunu bapbalaca, di gəl ki,*
*Gözümüzdə pələngləşir, şirləşir!"*
*Bu, obrazlı, poetik mənzərə tanışdırmı?*
*"Dodaqları kəpənəyin qanadı,*
*Anasının öpüşündən qanadı".* - misralarını oxuyan hansı gənc ananın sevincdən gözləri yaşarmaz?

"Qızıma" şeirində kövrək bir epiqraf var: "Ata, nə üçün bir gözün gülümsər, bir gözün qəmlidir? İlahə"

İlahə şairin qızının adıdır. Bu sualı verəndə onun yeddi-səkkiz yaşı olardı. O vaxt şairin cavabı belə olub:

*"Bir gözüm ağlayır, bir gözüm gülür,*
*Birinci sən duydun bu dərdi, qızım.*
*Çox alim duymadı, cahil qanmadı,*
*Bu necə sitəmdi, kədərdi, qızım?"*

Bəli, kədəri duymaq, qəmi hiss eləmək, dərdə şərik olmaq cahil işi deyil, şair duyğusudur, aqil qəlbidir.

"Hər kəsin dərdi özünə dəvə boydadır". Bu bir zərb-məsəldir, sərrast ifadə olunmuş hikmətdir. Əlbəttə, bir duyğusal insan kimi, qəlbi saf şair kimi Ramiz İsmayıl dərddən, qəmdən sığortalanmayıb. Şair öz dərdindən, dərdli insanların kədərindən bəhs edən şeirlər yazıb. Dərdlə "sirdaş, qardaş, bağrıbadaş" olan şair yazır:

*"Dərdlərim nə qədər vəfalı imiş,*
*Məndən ayrılmaydı ölənə qədər.*
*Hamıdan tez gəldi qəbrimin üstə,*
*Qohumum, əqrəbam gələnə qədər".*

"Dərddən yazanlar gəlsin məndən öyrənsin", - deyən şair "Dərddən yaza-yaza dərdi bezdirdim" də söyləyir:

*""Yek" istədim, "şeş-beş" verdi dərd zəri,*
*Üstələdi kədər ləli, dərd zəri.*
*Bəxtikəmin özünündü dərd-səri,*
*Nə sənindir, nə mənimdir, nə onun".*

Misralar necə də qol-boyun olub, bir-birlərinə "sığınıblar". Şairin lirikasından bəhs etmək istəyirdim, amma necə oldusa, bu dərd-qəm araya girdi.

Şeirlərinin birində Ramiz İsmayıl yazır:

*"Mənim dərdim yerdən göyə qədərdir,*
*Mənimlə bu qədər oynama, bəxtim!"*

Onda bəxtə, naxışa, şansa inam böyükdür. Lakin özünü bəxtli, şanslı şair hesab etmir. Bu həqiqətən belədir.

*"İşim düşən "gədə" dönüb "bəy" olur,*
*Mənimlə bu qədər oynama, bəxtim!"* - misraları təsadüfi yaranmamışdır. R.İsmayıl elə buna görə də arada "BƏXTİKƏM" təxəllüsü götürmək istəyib.

*"Taleyimə Tanrı özü baxdı kəm,*
*Ramiz idim, dönüb oldum bəxti kəm"*

və yaxud,

*"Ramiz kimi bəxtikəmdən*
*Umduğunu umma daha!" -*
*misraları da buna əyani şahidlik edir.*

*"Taleyi bəd gələn, bəxti kəm olan*
*Ocağa əl atsa, qor da tapılmaz.*
*Bağban olub, bağ becərsə dəmadəm,*
*Quruyar bağ-bağat, bar da tapılmaz".*
*"...Zəhər lazım olsa mar da tapılmaz".*
*"...Çıxsa dağ başına qar da tapılmaz".*
*"Əli sığal görməz, telləri tumar,*
*Körpüdən keçəndə zərə göz yumar.*
*Bu biçarə gordakından pay umar,*
*Gordakı gorbagor gorda tapılmaz".*

Talesiz, bəxtsiz insanı bu cür ustadnamə səviyyəsində təsvir edib şair Ramiz İsmayıl. Yenə də şairlik iddiası olmadığına görə, təxəllüsü böyük şairlər götürər qənaəti ilə "Bəxtikəm" təxəllüsündən də vaz keçib, yazdıqlarını eləcə adı, soyadı ilə çap elətdirib.

Azərbaycan klassik poeziyasında janr etibarı ilə ən çətin və əsas növlərdən biri, bəlkə də birincisi təcnisdir. Onun bir çox şeirlərində çoxlu cinas qafiyəli bəndlər olmaqla yanaşı xeyli sayda təcnisləri var: "Təzə-tərdi qız", "Gül əsər", "Ağarıb elə", "Yağıda aman", "Dağıt a yanmış", "Gül incə", "Dərdi bezdirdim", "Bir də", "Bir əl daş idi" və başqaları buna aiddir.

"Xal qala" təcnisində şair yazır:

*"Məcnun qəlbi gövhər idi, ləl idi,*
*Eşq ucundan səhralarda ləlidi.*
*Ramiz, sən də "Leyli" deyib ləli di,*
*Bir kimsən yox, ürəyində xal qala!"*
*"Bir əl daşı idi" təcnisindən bir bənd:*
*"Daşın daş yükünə daş dayanırdı,*
*Daşın daş gününə daş da yanırdı.*
*Su tökdülər, su da daşda yanırdı,*
*Yanan doğrudanmı bir əl daşıdı?"*

"Gül incə" təcnisində incə mətləbə diqqət edək:

*"Bağban oldum, bir gözəlin bağına,*
*Dedim: - Gözəl, sən incəsən, gül incə?*
*Dedi: - Şair, eşq əhlisən, bilirəm,*
*Ağıllı ol, danış incə, gül incə!"*

"Yad ayə" təcnisi az qala "sosial-siyasi" yük şələsi götürüb.

*"Tanımıram bundan ağır bəla mən,*
*Öz yurdumda düz qəddimi yad əyə.*
*Qulağımız "qabar" olub yad sözdən,*
*Yad surədi, yad duadı, yad ayə!" -*

Deyən şair qucağımızı geniş açdığımız, boynumuzda gəzdirdiyimiz, süfrəmizin başında oturtduğumuz nanəciblərin pambıqla başımızı kəsməyə hazır olduqlarını dolayısı ilə anlatmağa cəhd edir.

R.İsmayılın yaradıcılığında cinas qafiyəli şeirlər çoxdur.

*"Mənim haqqım haqdan gələn haqq idi,*
*Qanım haqqa halal idi, haqq idi.*
*İnandığım, güvəndiyim haqq idi,*
*Kimdən, nədən qorxasıyam daha mən?"*
*"...Əhdə vəfa edib, sözə tən gəlib,*
*Ağarmış saçına təzə dən gəlib.*
*Qayıdıb dünyaya təzədən gəlib,*
*Ramiz gəzdiyini tapmayıb hələ".*
*"...İki aləm bir-biriylə yanaşı,*
*Nə ayrılmaz, nə yol getməz yanaşı.*
*Alim olsun, cahil olsun, ya naşı -*
*Qandırmağa ürəyimdə sözüm var!"*

Ramiz İsmayılın yaradıcılığında yumorlu şeirlər də kifayət qədərdir. "Göy gətir dedi", "Peysərə ver", "Xamilyonlara", "Nisyə dəftəri", "Bayram, bizə gəlmə daha", "Azəri qızı", "Allah amandı", "Bir gün", "Ay oğul", "Əgər məni seçsəniz" və başqaları bu qəbil şeirlərdəndir.





*"Arvadımla davamı araşdırır ingilis,*
*Diplomatik üsulla barışdırır ingilis.*
*Çömçə alıb dovğamı qarışdırır ingilis,*
*Nə karədir ingilis - əgər məni seçsəniz?"*

Seçkiqabağı platformasından danışan bir boşboğazın televiziyadakı çıxışındandır. "Etimad göstərib parlamentə seçsəniz" deyə müraciət edən Minsifət Bədniyyət oğlu Hərtərəflinin xalqa vədinə fikir verin:

*"Filankəsi seçməyin, dava-dalaş salacaq,*
*Filankəsi seçməyin, içib yolda qalacaq.*
*Anasının bətnində, uşaqpulu alacaq,*
*Göz açmamış körpəniz - əgər məni seçsəniz!"*

R.İsmayılın şeirlərində aforizmlər səviyyəsində olan beytlər var:

*"Düşmənə deməli ürək sözümü*
*Gözünün içinə, aşkara dedim".*
*"Günün günortası Diogen kimi,*
*Əlimdə şam çıraq insan gəzirəm".*
*"Canavarın ağzından*
*qurtarmışam quzunu,*
*Quzu qayıdıb mənə*
*göstərib buynuzunu".*
*"Gözdə biclik, dildə yalan bitərmiş,*
*Dost bildiyin düşməndən də betərmiş".*
*"Allah, bizə saxta dostlar verincə,*
*Hasara qoymağa bir daş verəydin".*
*"İnsan var torpaqda gövhər arayır,*
*İnsan var, yer eşir köstəbək kimi..."*

R.İsmayılın şeirləri təbii, sadə və səmimidir. Şair yersiz pafosa, iddialı, ibarəli, başgicəllədici ifadələrə, misralara, ümumilikdə belə şeirlərə aludə deyil. O, hamının danışdığı, başa düşdüyü, sevdiyi dildə yazır, yaradıcılığında klassik ənənələrə söykənir, folklordan qidalanır, şifahi xalq ədəbiyyatına, aşıq poeziyasına dərin ehtiramla yanaşır.

Hər şairin öz auditoriyası var. Ola bilsin, müasir gənclik Ramiz İsmayıl kimi klassik üsluba söykənən şairlərin yaradıcılığına tez-tez müraciət etməsinlər. Çox keçməz, əcnəbilər tərəfindən bizə sırınmış modernist, postmodernist, əndrabandi ədəbiyyata uyanların əsərləri sabun köpüyü kimi dağılıb yox olacaq. Min illərin sınağından çıxmış poeziyamız isə min il də bundan sonra yaşayacaq.

Ramiz İsmayıl ədəbiyyata motal-motal pendirlə, şaqqa-şaqqa cəmdəklə, kilo-kilo bəçə balı ilə, hinduşka qanadında gəlməyib. O, ədəbi aləmə ağır-ağır, ləngərli addımlarla gəlib. Ədəbi jurnal və qəzet redaksiyalarının kandarını yağır eləməyib, qapıdan çıxıb, pəncərədən qayıtmayıb. Nə vaxt duyğuları oyananda, ilham pərisi gələndə qələmə sarılıb. Ona görə də ömrünün yetmiş ilini kiçik bir əhatədə, qohum-əqrəba ilə, qələm dostları ilə qeyd edir.

R.İsmayıl hələ Azərbaycan Yazıçılar Birliyinin üzvü də deyil, qələm dostlarının təklifi ilə bu il sənədlərini təqdim edib, amma növbədə ondan əvvəl beş yüzdən çox adam var. Gecikməyinin səbəbini, günahını özündə görür: "danlamaram, qınamaram heç kimi, özümdəndi, özümdəndi gileyim" deyir. Onun yaradıcılığından monoqrafiya da yazmaq olar, bəlkə də gələcəkdə yazılacaq.

Onun həyat və yaradıcılığına müraciət etməkdə məqsədim heç də şeirlərini tənqid və təhlil etmək deyildir. Şübhəsiz ki, diqqətlə axtarsaq onun da qələm məhsullarında irad tutulası nə isə taparıq. Yalnız şairin yetmiş yaşının tamam olması münasibətilə BİR DOST SÖZÜ ilə yaradıcılığına nəzər salmaq, təbrikimizi çatdırmaq niyyətindəyik. Onunla səksənində, doxsanında, YÜZ YAŞINDA görüşməyi arzulayırıq. O, isə yenə də:

"Şeir yazdım, yazmağına,
Şair olmadım, deyəsən". - deyib durur, ona vaxtında yaradılmayan şəraitdən, ədəbi mühitdə verilməyən SÖZ MEYDANIndan gileylənir. Nə edəsən, bu da TALEYİN SƏRT YAZISIDIR!

*"Şeh ətirli, süd qoxulu,*
*Şeir şirin bir yuxudu.*
*Yazdığımı kim oxudu?*
*Şair olmadım, deyəsən.*

*Sular axdı şırıl-şırıl,*
*Quşlar uçdu pırıl-pırıl.*
*Qırıl, ay qələmim, qırıl,*
*Şair olmadım, deyəsən.*

*Sehirliymiş söz aləmi,*
*Öz dünyası, öz aləmi.*
*Qınama, Ramiz, qələmi,*
*Şair olmadım, deyəsən".*

Biz isə deyirik: 70 YAŞIN MÜBARƏK, ŞAİR!

***ƏLİ BƏY AZƏRİnin***

*"Mürəkkəbi şehdi, qələmi güldü,*
*Hələ yazılmayıb sonuncu şeir".* - deyən Ramiz İsmayıldan yazacağı hələlik bu qədər...